**Qlobal Sahibkarlıq Həftəsinin**

**Azərbaycanda qeyd edilməsinə dair**

# HESABAT

**17 Noyabr, 2017-ci il tarixində, Qlobal Sahibkarlıq Həftəsi** qeyd edilərək **UNDP və USAID** dəstəyi ilə Azərbaycanda 2 tədbir keçirilmişdir:

1) "**AZƏRBAYCANDA QADIN SAHİBKARLIĞININ İNKİŞAFI"** mövzusunda konfrans;
2) **"BLOKÇEYN və BULUD TEXNOLOGİYALARI"** mövzusunda dəyirmi masa.

Konfrans Bakının Holiday Inn Otelinin Bakı Zalında dəyirmi masa isə həmin otelin London zalında keçirilmişdir. Konfransın və dəyirmi masanın gündəliklər müvafiq olaraq 1-ci və 2-ci əlavələrdə əks etdirilir.

Konfrans öz işinə saat 10.00-da başladı və 13.30-adək davam etdi. Konfransı giriş sözü ilə Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti S.Bağırov açdı. Bundan sonra konfransı Milli Məclisin üzvü **Vahid Əhmədov**, USAID/Azərbaycan Missiyasının Direktoru xanım **Mikaela Meredith** və UNDP-nin Azərbaycanda Nümayəndəliyinin rəhbəri cənab **Ghulam M. Isaczai** konfrans iştirakçılarını salamladılar və qadın sahibkarlığının Azərbaycanda inkişafına dair görülən işlər barədə bəzi mülahizələr söylədilər. Daha sonra konfransın 1-ci Panelində 4 məruzəçi çıxış etdi:

1) **Anar Məmmədov,** İqtisadiyyat Nazirliyinin sektor müdiri;
2) **Sevinc Məmmədova,** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin böyük məsləhətçisi;
3) **Səkinə Babayeva,** Azərbaycan Qadın Sahibkarlar Assosiasiyasının sədri;
4) **Natəvan Məmmədova,** AmCham Azərbaycan təşkilatının İcraçı direktoru.















1-ci Panelə Milli Məclisin üzvü Vahid Əhmədov sədirlik edirdi.

2-ci Paneldə İqtisadiyyat Nazirliyinin sektor müdiri Anar Məmmədov sədirlik edirdi. 2-ci Paneldə məruzələrdə aşağıda qeyd edilən konfrans iştirakçıları çıxış etdilər:

1) **Zenfira Ağayeva,** "Sahibkar Qadınlar" İB sədri, Gəncə;
2) **Fatimə Ağamirzəyeva,** "Xalça Dünyası" İB sədri, Quba;
3) **Jalə Əmirbəyova**, sahibkar, Gusar rayonu;
4) **Nazilə Hüseynova**, sahibkar, Masallı rayonu;
5) **Aygün Xəlilova**, sahibkar, Masallı rayonu.





Konfransın sonunda xanım Səkinə Babayeva və Sabit Bağırov yekun çıxışlar etdilər və bununla kofrans işini bitirdi.






Konfransın İşçi dilləri Azərbaycanca və İngiliscə olmuşdur.

Konfransda 62 nəfər iştirak etmişdir. O cümlədən:

- bir Milli Məclis üzvü;
- 8 hökumət nümayəndələri (İqtisadiyyat, Vergilər, Kənd Təsərrüfatı Nazirlilkəri, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi);
- 12 Beynəlxalq təşkilatların nümayəndələri (UNDP, USAID, ADB, IFC, SECO);
- 12 Sahibkar qadın;
- 5 Sahibkar Birlikləri;
- 9 QHT;
- 4 Səfirlik nümayəndəsi (USA, UK, İsveçrə);
- 3 Beyin Mərkəzləri;
- 2 Universitet professoru;
- 6 Jurnalist.

Həmin günün 2-ci yarısında **“BLOKÇEYN və BULUD TEXNOLOGİYALARI”** mövzusunda dəyirmi masa keçirilmişdir. Dəyirmi masada 2 məruzə edilmişdir:

1) “BULUD TEXNOLOGIYALARI” – məruzəçi Ceyhun Əliyev, AZİNTELECOMun direktor müavini
2) “RƏQƏMSAL IQTISADIYYAT, BLOKÇEYN və BULUD TEXNOLOGİYALARI” – məruzəçi Sabit Bağırov, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti.

Dəyirmi masaya İqtisad Universitetinin professoru Rasim Həsənov moderatorluq edirdi.

Həm konfransın həm də dəyirmi masanın vide-çəkilişi aparılırdı. Vide-çarxlar Youtube – də yerləşdirilib və buradan seyr edilə bilər:

- Konfrans, 2-ci Panel:
  https://www.youtube.com/watch?v=86BFO0jN6es&feature=youtu.be
- Konfrans, Açılış və 1-ci Panel:

  https://www.youtube.com/watch?v=k54xcnSbhzY&t=59s
- Dəyirmi masa, 1-ci məruzə:

  https://www.youtube.com/watch?v=lNJ3ThZYqlQ&t=628s
- Dəyirmi masa, 2-ci məruzə:

  https://www.youtube.com/watch?v=6Iij0HwrG3k&t=384s

Dəyirmi masa iştirakçıların sayı 14 nəfər olmuşdur.

Sabit Bağırov,
Layihənin meneceri